# RƏNGLƏRİN AHƏNGDARLIĞI

**Fəridə Quliyeva**
AMEA Memarlıq və İncəsənət İnstitutu
Təsviri, dekorativ-tətbiqi sənətlər və heraldika şöbəsinin
aparıcı elmi işçi, sənətşünaslıq üzrə elmlər doktoru, dosent
**E-mail: feridequliyeva.66@mail.ru**

Təsvirlərdə seçilən rənglər bilavasitə məzmuna xidmət edən harmonik determinasiyanı (yəni, dəqiq müəyyən edilmiş rəng və çalarların öz aralarındakı, bundan əlavə, formalarla rənglər arasındakı, bir sözlə, ümumilikdə məzmunun koloristik baxımdan kompleks və monolit harmoniyası) gərək gözləsin.

Qeyri-adi dərəcədə elastik və effektli, həmçinin praktiki



vasitələrdən olan rəng, mürəkkəb psixoloji vəziyyətləri açmağa qadirdir. İlkin olaraq hər bir rəngin keyfiyyət və xüsusiyyətini, bir-biri ilə uyğunluğunu, onlardan hansı vaxtlarda necə istifadə edilməsi üsulunu dərindən bilmək lazımdır. Yalnız bundan sonra, əsərin ideya məzmununun açılmasına xidmət edən bu və ya digər hadisəyə müvafiq rənglərin seçilməsində hansı çalar qrupuna (açıq, orta və ya tünd) müraciət aydınlaşdırılır.

Təsviri sənət əsərində istifadə olunan rənglərlə, təsvir olunan hadisənin məzmununu məcazi mənada (nəzəri cəhətdən) əks etdirən şərti rənglərin əsərin bütöv bədii-emosional koloriti ilə ümumilikdə bir vəhdət təşkil etməsi gərəkdir.

Süjetli əsərdə obrazların ayrı-ayrılıqda hər birinin xarakterinə müvafiq geyimlərin rəngləri estetik cəhətdən uyğun seçildiyi halda, bəzən fəlsəfi cəhətdən məzmunun ümumi koloritinə uyğun gəlməyə bilər. Burada işlənən kolorit məfhumunu, istənilən konkret məna kontekstini ifadə edən və emosional (təhtəlşüur) duyma vasitəsilə şüurda assosiativ fikirlər oyadan harmonik rənglər spektri kimi anlamaq həqiqətə uyğun olar. Ayrı-ayrı



xüsusiyyət və keyfiyyətləri fəlsəfi cəhətdən xarakterizə edən rəng kateqoriyası fərdi şəkildə heç də geniş məna daşımır. Rəngin öz mənşəyi, məzmunu və vücudu etibarı ilə müəyyən sistemə daxil olması ilə bərabər, həmin sistemə sıx bağlılığı açıq-aşkar müşahidə olunur. Saysız-hesabsız rənglərin təşkil etdiyi belə sistemlər, quruluşca qanunauyğun və tamamlanmış vahid bir ansamblı xatırladır. Ona görə də bu cür sistemlərin içindən hansı hakim rəngin, başqa sözlə, dominant koloritin seçilməsi, hansı spesifik əlamətlərin gücü hesabına belə bir rənglər ansamblına vahidlik və tamlıq kimi sifətlərin qazandırıla bilməsi əvvəlcədən aydınlaşdırılır. Bu aydınlaşdırma və seçim düzgün bədii təsvir

vasitəsilə əsərin məzmununun tamaşaçı qarşısında açılması, ümumi fəlsəfi-estetik harmoniyanın təmini və əsərin mühitinin tamaşaçı tərəfindən anlaşıqlı qavranılması kimi hədəflər güdən əsas məsələlərdən biridir. Bu baxımdan məsələn, qara, qırmızı – şərin ifadəsi, qəhvəyi – torpaqlar uğrunda aparılan müharibənin ifadəsi kimi götürülə bilər.

Təsviri sənət əsərlərinin, kolorit sistemi üzərində qurulması ətrafında apardığımız təhlillər, bizi müəyyən qənaətlərə gətirib çıxarır. Belə təhlil bir daha təsdiqləyir ki, əsərdə rənglər bədii vasitələrin ən əsasıdır, rəng əsərin kompozisiyasının qurulmasında olduqca mühüm rol oynayır. Hər bir əsərin özünəməxsus ümumi bir çalar qrupuna malik olmasına baxmayaraq, əsərdə cərəyan edən hadisələr içərisində çoxsaylı təzadlar, ziddiyyətlər və konfliktlərdən hər birisinin məhz müxtəlif rənglər vasitəsi ilə ifadə edilməsinin zəruriliyinə şahid oları (ümumi kolorit qanununa riayət etmək şərti ilə). Konkret əsərlərdən bir çox belə bariz misallar gətirmək olar. Məsələn, multikultural mühiti əks etdirən əsərdə, İslam dini ilə əlaqəli mühit, xristian dininə aid mühitlə eyni anda təsvir edilə bilər. Rəssam bu iki müxtəlif mühiti biri-birindən fərqləndirən xüsusi rəng çalarlarında verməklə, bir tərəfdən tamaşaçıya əsərin məzmununu dərk etmək imkanı yaradır, digər tərəfdən tarixi-ədəbi mənbələrdən qaynaqlanan hadisələrin göz önündə canlandırılmasına nail olur. Bundan əlavə, iki mühitdən hər birinin müsbət xüsusiyyətlərini ifadə edən rəng çalarları ilə birlikdə mənfi xüsusiyyətləri ifadə edən digər rəng çalarlarının da təhqiq nəticəsində ayırd olunması, sonra isə ümumi kolorit vasitəsi ilə təqdimatı çox doğrudur. Beləliklə, əsərin hər bir hissəsində təsvir edilən müəyyən mühitin spesifik xüsusiyyətlərinə uyğun seçilən rənglərin dinamik dəyişkənliyi faktoru da, əlavə mənalandırma imkanı kimi nəzərdən qaçırılmamalıdır. Belə ki, rəssam müxtəlif zümrələrə aid obrazların geyimlərində sənədli faktlara əsaslanan rənglər seçsə də, ümumi kolorit seçiminin də uğurlu həllinə çalışmalıdır.

Qeyd etmək lazımdır ki, əsərin konkret təsviri mənasından kənarda rəngin emosional rolu haqqında abstrakt şəkildə bəhs mümkünsüz və mənasızdır. Mahiyyətcə müxtəlif hadisələrin əks etdirilməsi zamanı ayrı-ayrı substansiyaları və obyektləri ifadə edən eyni rənglər, əksərən müxtəlif səviyyə və tərzdə qəbul olunur və bundan ötrü də diferensial qaydada qiymətləndirilir. Misal üçün, qırmızı rəng keyfiyyətcə müxtəlif təəssüratlar yaradır. Çünki "tünd qırmızı rəng - həm zadəganlıq, ləyaqətlilik, yüksəklik, hakimlik kimi məna səciyyələri" (4, s. 236) daşıyır, "qırmızı rəng isə ixtiyar, güc, cəsarət, məhəbbət" (4, s. 237) mənalarını verir, lakin bu rəngin digər interpretasiyası "şər mənasını kəsb edir" (5, s. 58). "Elm rəng barəsində belə bir qanun qəbul edib ki, açıq rənglər, soyuq çalarlar sakitlik əhval-ruhiyyəsi yaradır" (2, s. 6). Lakin praktikada bu nəzəri mülahizə özünü bəzən fərqli şəkildə göstərir. Təsviri sənət əsərində rəng bir qədər başqa cür qəbul oluna bilər. Belə ki, soyuq çalara malik gümüşü rənglə, müharibənin rəmzi mənası (yəqin ki, bu, texnika və silahın poladdan istehsalına məcazi işarədir) təqdim edilə bilər. Bu baxımdan əsərin rəng tərtibatı müvəffəqiyyətli sayıla bilər. "Qəmginlik, qüssə, kədər" əlamətli qara rəng koloriti, həm də "şər qüvvələrin bəd niyyət və məqsədlərini" təcəssüm edən rəng kimi qəbul edilir. Çünki qara rəngin öz növbəsində bir neçə məna variantı üzrə yozula bilməsi təbii qarşılanmalıdır. Mənbələrdə verilən məlumata görə o, "şər, müvəffəqiyyətsizlik, əzab və bədbəxtlik, xəstəlik, cadugərlik" (5, s. 58) kimi mənaları daşımaqdadır. Ümumiyyətlə rənglərin assosiativ interpretasiyası haqqında qeyd etməliyik ki, rəng yozumunda yol verilən plüralizm heç də xaotik xarakter daşımır, ciddi və obyektiv qanunauyğunluqlarla şərtləndirilir.

Beləliklə, bədii əsərdə rənglərin spektral qanunauyğunluğu əsasında toplanan vahid rənglər palitrası digər bədii vasitələrlə əlaqədə uyğunlaşdırılmalıdır. Məlum rəng müəyyən bir əşyanın məzmununa aid real konkret xüsusiyyəti əks etdirir, bundan əlavə, cərəyandakı hadisənin məzmunundan, ideyasından, süjetindən asılı olaraq rəng, məqsədəuyğun xüsusi tonlarla daha da gücləndirilir. Yəni əgər sarı, yaşıl və digər rənglər müvafiq şəkildə günəşi, çəmənliyi və sairi ifadə edirsə, bütünlükdə əsərin ümumi rəng çalarları səmaya, torpağa, alova, günəşə tuş gələn müəyyən mənalar kəsb edərək, eyni zamanda müxtəlif tonları



səciyyələndirən mücərrəd xüsusiyyətlərin də ifadəsində süjetin ideyasının semantik açılışına xidmət göstərir. Rənglərdən: "yaşılın - azadlığı, sevinci, ümidi, sağlamlığı; göyün - şöhrəti, səmimiyyəti" (4, s. 237) bildirdiyi barədə məlum fikirləri misal gətirə bilərik. Əgər qırmızı rəng həm alovun, həm də qızılgülün rəngidirsə, demək, rəssam artıq əsərin məzmununa uyğun münasib tonları seçməklə lazımi mənanı ifadə etdirməlidir.

Rəssamın əsər üçün müvafiq rənglər qammasını seçdikdən sonra onu hansı tonlarda verməsi də mühüm məsələdir. "Təbiətin hansısa səhnəsi parlaq günəş altında və sonra isə tutqun havada müşahidə olunanda müxtəlif təəssüratlar yaradır. Birincidə işıq və kölgə güclü, ikincidə isə tutqun və rəngarəng olur" (3, s. 64). Deni Didronun sözlərindən belə nəticə çıxarmaq mümkündür ki, işıqlanmanın dərəcəsiylə və əhatədə olan müxtəlif hal və keyfiyyət dəyişmələri ilə əlaqədar rənglərin xarakteristikası da müəyyən qədər dəyişə bilər. Eyni zamanda ayrı-ayrı məsafələrdən, yəni yaxından və uzaqdan, rənglər müxtəlif tonlarda görünür. Buna görə də rəssam bir növ orta ton seçmək məcburiyyətində qalır.

Bu cür izahda müxtəlif tonların tamaşaçı tərəfindən başa düşülməsi bir növ musiqi tonlarının qavranılması kimidir. Musiqi tonu - musiqi sistemini təşkil edən səs sırasının bu və ya digər pilləsindən ibarət əsas səslərin nizamlı nisbi vəziyyəti, bu səslərin müəyyən edilmiş yüksəkliyidir. Üzeyir Hacıbəyli belə bir fikir irəli sürür ki, "xalq üçün aydın bir musiqi dilində əsər yazmaq istəyən bəstəkar xalq ladlarından musiqi bəstələmək qanunlarını əsaslı surətdə bilmədən, çox çətin ki, dinləyicilərin yüksək bədii tələbini öyrənə bilsin." (1, s. 14). Musiqi sırasına başqa tonlardan səs düşəndə o, bu sırada yad görünür və həmin sırada artıq kimi qəbul edilir. Həmçinin bu, təsviri sənət əsərinin rəng çalarlarında da eyni dərəcədə müşahidə olunur. Müəyyən tonlu rəng palitrasına digər tonlu rəng düşəndə, uyğunluğu pozur, kolorit cəhətdən onunla birləşmir, demək olar ki, orada disharmoniya yaradır. ❖


**Ədəbiyyat:**

31. Hacıbəyov Ü. Azərbaycan xalq musiqisinin əsasları. Bakı, "Yazıçı", 1985, 154 s.
70. Алексеев С. О колорите. М., "Изобразительное искусство", 1974, 172 с.
76. Горчаков Н.М. Режиссерские уроки Станиславского, М., "Искусство", 1951, 567 с.
91. Похлебкин В.В. Международная символика и эмблематика. М., "Международные отношения", 1989, 301 с.
96. Семиотика и искусствометрия. Сборник перевода сочинений Ю.М.Лотмана. М., "Мир", 1972, 364 с.



**Резюме**

Фарида Гулиева

ГАРМОНИЯ ЦВЕТНОСТИ

Эта статья послужит настоящим путеводителем для начинающих художников, искусствоведов или просто для любителей и ценителей изобразительного искусства.

Автор статьи делает акцент на том,.что цвета, выбираемые в процессе изобразительного творчества, должны соблюдать не писаные правила гармонической детерминации, призванной служить непосредственно содержанию.

**Ключевые слова:** цвет, изображение, художник, оттенок, единство.



**Summary**

Farida Guliyeva

HARMONY OF COLOUR

The colours chosen in the process of fine art must comply with the unwritten rules of harmonic determination, called to serve directly the content. The category of colour, which acts as one of the unusually flexible and effective, and also practical means in the visual arts, is capable of revealing the most complex psychological states of a person. In this case, it is necessary first of all to have a detailed idea of the qualities and characteristics of each colour, as well as to have a technique for when and how to apply correctly the potential of available knowledge.

**Key words:** colour, picture, painter, shade, unity.